## AZƏRBAYCANIN MİNERAL-XAMMAL RESURSLARI RESPUBLİKA İQTİSADİYYATININ ƏSASIDIR

Azərbaycan Qafqaz regionunda mineral xammal ehtiyatları ilə ən zəngin ölkədir. 2005-ci ildə nəşr olunmuş və elmi ictimaiyyətin geniş müzakirəsinə verilmiş «Azərbaycanın mineral-xammal resursları»* monoqrafiyası söylədiyimiz fikri açıq-aydın təsdiq edir. Kitabda mineral-xammal resursları faktiki materiallara istinadən ətraflı olaraq təsvir edilmiş və, heç şübhəsiz, respublikanın iqtisadi qüdrətinin artmasında, regionların sosial-iqtisadi inkişafında önəmli rol oynayacaqdır.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, mineral xammal ehtiyatları bərpa olunmayan ehtiyatlar sırasına daxildir. Son illər planetimizdə mineral xammala olan ehtiyac onun istehlakı və istehsalını üstələmək iqtidarındadır. Hər on ildən bir əlvan və qara metalların istehsalı dünyada təxminən iki dəfə artır. Respublikamız filiz və qeyri-filiz resursları ilə zəngin olduğundan bu böyük maraq doğurur. Çünki bizim zəngin filiz və qeyri-filiz resurslarının istehsalına sərmayə qoyulması, Azərbaycanda dağ-mədən sənayesinin inkişafına ciddi təkan verə bilər.

Ancaq onları gələcək nəslə də saxlamağı unutmamalıyıq. Bu baxımdan mineral ehtiyatlardan səmərəli və kompleks istifadə olunması Azərbaycan sənayesinin, iqtisadiyyatının ən ümdə problemlərindən biri olmalıdır. Buna nail olmaq üçün ölkəmizdə faydalı qazıntıların axtarışına və istismarına yeni texnologiya tətbiq olunmalıdır. Filizdə əsas faydalı komponentlərlə yanaşı ikinci dərəcəli qiymətli elementlərin də istismarına cəlb olunması filizin maya dəyərini artırır və ətraf mühitin mühafizəsi üçün əlavə maliyyə mənbələri tələb edir.

Prof.V.M.Babazadənin rəhbərliyi altında çap olunmuş monoqrafiyada Böyük və Kiçik Qafqazın zəngin fıliz ehtiyatları çoxlu faktiki materiallar əsasında geniş açıqlanmış, baxılan yataqların geoloji xüsusiyyətləri, filizlərin morfoloji tipləri, dağ-mədən və hidrogeoloji yatım şəraitləri, yayılma qanunauyğunluqları və mənşələri haqda geniş məlumat verilmişdir. Kitabda müəlliflər filizləşmənin maqmatizm ilə əlaqəsini aydın göstərməklə yanaşı, yeni metallogenik zonalar və qovşaqlar da ayırmağa nail olmuşlar.

---

* Минерально-сырьевые ресурсы Азербайджана. Авт. В.М.Баба-заде, В.Г.Рамазанов, Д.М.Ахмедов, А.И.Хасаев, Б.Г.Каландаров, М.М.Мамедов, З.И.Мамедов, С.С.Самедов, С.А.Агаев и др. Изд. «Озан», Баку, 2005, 808 с.

Müəlliflər məsələyə sistemli yanaşaraq ərazidə struktur-formasion komplekslər çərçivəsində filizləşmə prosesinin mahiyyətini açıqlamışlar.

Məhz belə sistem analizinin nəticəsində yeni, dərində yatan və yer üzərinə çıxışı olmayan «kor» filiz kütlələrinin proqnozu əsaslı şəkildə arqumentləşdirilmişdir. Kitabda qara, əlvan, nəcib, nadir və digər qrup yataqların ümumi geoloji səciyyəsi verilmiş, onların Böyük və Kiçik Qafqaz ərazisində yayılması, təsnifatı göstərilmişdir.

Monoqrafiyada öz zənginliyi ilə seçilən qeyri-filiz faydalı qazıntı yataqları haqqında dolğun məlumatlar araşdırılmış və ümumiləşdirilərək öz əksini tapmışdır. Xüsusən bentonitlər, seolitlər, rəngli və qiymətli daşlar, optiki materiallar, inşaat materialları və s. haqqında məlumatlar Azərbaycanın mineral ehtiyatları ilə zənginliyini bir daha nümayiş etdirir.

Qeyd etdiyimiz kimi, monoqrafiyanın ərsəyə gətirilməsində böyük kollektiv əmək sərf etmişdir. Ancaq kitabın Azərbaycanın mineral ehtiyatlarına cəlbedici, məlumatverici rolunu artırmaq üçün onun ingilis dilinə tərcümə olunması və geniş tirajda buraxılması çox vacibdir.

Monoqrafiyanın ingilis variantının daha müasir poliqrafik səviyyədə hazırlanması, bir sıra diaqram və xəritələrin rəngli variantda verilməsi məsləhətdir.

Yaxşı olardı ki, kitabın sonunda Azərbaycanın faydalı qazıntılar xəritəsinin 1:500 000 miqyasda rəngli variantı verilsin və orada faydalı qazıntı yataqlarının ölçüləri, genetik tipləri, xammalın keyfiyyəti və tətbiq edilmə sahələri və s. məlumatlar öz əksini tapsın. Həmçinin hesab edirik ki, monoqrafiyanın ingilis variantında mineral xammalın iqtisadiyyatına həsr edilmiş xüsusi bir fəsil ayrılsa pis olmazdı. Azərbaycanın mineral-xammal ehtiyatlarının ekologiyasına dair də əlavə fəslin yazılması monoqrafiyanın müasirliyini və praktiki əhəmiyyətini daha da artıra bilər.

Sonda bir daha qeyd etmək yerinə düşər ki, «Azərbaycanın mineral-xammal resursları» kitabı yeni stildə yazılmış, faktiki materiallar və əməli tövsiyyələrlə zəngin fundamental monoqrafiyadır. Hesab edirəm ki, bu ensiklopedik tutumlu əsər Azərbaycanın iqtisadi qüdrətinin artmasında müstəsna rol oynayacaqdır.

**Azərbaycanın əməkdar geoloqu,**
**prof. Ç.M.XƏLİFƏZADƏ**